*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 456-464*
https://doi.org/10.62837/2024.6.456

**VÜSALƏ NƏBİYEVA**
**orcid.org/0000-0002-2236-9170**
**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
*e-mail:* paradiseaegis@gmail.com

# İNGİLİS ƏDƏBİYYATININ TARİXİ-ƏFSANƏVİ SURƏTİ KRAL ARTURUN MİLLİ MƏNSUBİYYƏTİNƏ DAİR MÜBAHİSƏLİ MƏQAMLAR

***Açar sözlər:*** *Kral Artur, Sarmat, Azık (Yazıq), Türk, Kelt*
***Ключевые слова:*** *Король Артур, Сармат, Языги, Турецкий, Кельт*
***Key words:*** *King Arthur, Sarmatian, Iazyges, Turkish, Celtic*

Tarixən Kral Artur dövrünə həsr olunmuş əsərlər "Artur ədəbiyyatı" adı altında sistemləşdirilir. Ümumiyyətlə, "Artur" əfsanələrinə qədim Britaniyanın Kralı Artur, onun Dəyirmi masa cəngavərləri, Cəngavərlik kodeksləri, Kamilot sarayı, Ekskalibur və s. daxildir. Bu termin başlığı altında akademiyalarda, universitetlərdə mühazirələr keçirilir, "Artur lüğətləri" tərtib olunur, internetdə bu mövzularla bağlı saytlar açılır, tamaşalar qoyulur, filmlər, cizgi filmləri çəkilir, şirkətlər yaradılır, küçələrə ad verilir.

Bəzən hər hansı bir ad və ya ölkə bizdə xüsusi müsbət ya mənfi təsəvvür yaradır. Artur adı da məhz bu qəbildəndir. Biz bu adı eşitdikdə xəyalımızda cəsur, mərd, qorxmaz, adil, uzaqgörən insan canlanır. Məhz bu səbəbdəndir ki, ədəbiyyat tarixinə nəzər saldığımız zaman Kral Artura olan marağın açıq şahidi oluruq. Arturun sirli, müəmmalı tarixi və ya əfsanəvi şəxs olması isə hər zaman hamının diqqətini cəlb edib. Tarixçilər hələ də Arturun real tarixi şəxs olub olmamasını və ya reallıqda hansı adla mövcud ola biləcəyi haqqında sonsuz fərziyyələrə sahibdirlər. Xalq tərəfindən uydurulan bəzi əfsanələr əlbətdə ki, adi insana xas olmayan və reallığa söykənməyən bacarıqların var olmasına inamı təmsil edir. Lakin, hər nə qədər cəsur və qəhrəman olunsa da bir döyüşdə 960 nəfəri öldürmə kimi iddilar həqiqətə uyğun görünmür. Şübhəsiz ki, bu kimi miflə xarakterik olan məqamlar tarixi proseslərə bədii təhlil verərkən əlavə olunmuşdur. *"Ədəbiyyat bütün hallarda mifdir... Mifin dünyanı izah etmə funksiyasının davamı mənasında ədəbiyyat da elmdir. Lakin, ədəbiyyat elmi konkret biliyə, obrazın fərdiliyinə əsaslanır... Müasir elm də dünyanı izah edir, lakin bunu terminlər, mücərrəd məfhumlarla edir. Elmin mifdən fərqi bir də onun həqiqəti bilmə iddiasıdır. Mifdə və ədəbiyyatda isə həqiqət – iddiasızdır, şüurlu olaraq şərti,... mistikdir"* [1, s.129-130].

Kral Artur haqqında bir çox kitabların müəllifi olan britaniyalı tarixçi Cefri Eş onun real tarixi şəxsiyyət olmasını qeyd edənlərdəndir. Kral Artura həm insanların, həm də ədiblərin böyük marağının səbəbi Cefri Eş tərəfindən bu cür təqdim olunur: *"Arturla bağlı tarixi məqamlar onun sadəcə qarışıq əfsanə və ya*

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 456-464*
*mifin "uydurulduğu dövrdə" formalaşan dastan olmadığını göstərir. Roman yazarları tarixdə baş verənlərə əlavələr edərək hekayəni genişləndirir; hadisələrin ardıcıllığını dəyişdirərək başqa məsələləri ön plana çıxarırlar... Yazıçılar yaratdıqları hekayələrində tarixi hesab olunan məqamları zəmin kimi qəbul edir və hadisələri yaratdıqları süjet xəttinə uyğunlaşdırmağa çalışırlar"* [2, s.3]. Məhz bu səbəblərdən, eyni zamanda, da Kral Arturun təsirli həyat hekayələri, mövzu baxımından zənginliyi bir çox yazıçılıar tərəfindən əsrlər boyu müxtəlif aspektlərdən, müxtəlif janrlarda qələmə alınmışdır. Bütün bu hekayələrin əsasında dini inanclar, mərdlik, ədalət, sülh, birlik, bərabərlik, qardaşlıq, insest, xəyanət, ehtiras, günah, ölüm, güclü idarə, xeyirhahlıq və s. kimi məvhumlar durur. Mövzu baxımından hər kəs tərəfindən bilinməsinə rəğmən kral Artur obrazı və onun dövrü oxucular tərəfindən daim sevgi ilə qarşılanmışdır. Kral Arturla bağlı ecazkar pentalogiya yazan Meri Styuart Arturun real həyatda mövcud olub, olmamasından danışan zaman qeyd edir ki, *"Əminəm ki, əfsanələrlə yaşadılan qədim ənənənin həqiqətdə çox sağlam əsası vardır. Məsələn, Arturun zireh geydiyi halda atını dörd nala çapması fikri cəfəngiyat olsa da, onun (Kral Arturun – V.N.) mövcud olmasına şübhəm yoxdur"* [3]. Bu baxımdan müəlliflə razılaşmamaq mümkün deyil, folklordan gələn bir çox motivlərin doğruluq payı olduqca yüksəkdir. Əslində əsas məsələ Kral Arturun həqiqətdə mövcud olub – olmaması, onun fərdi, fiziki, psixoloji keyfiyyətləri deyil, xalqın rifahı üçün çalışan adil hökmdar anlayışının var olmasıdır.

Mövcudiyyatı şübhəli olan Kral Artur haqqında Con T.Kok ilk dəfə VI əsrdə şair Aneyrin "Gododdin" ("Qododin") şeirində onun adının çəkilməsini qeyd edir və məsələni bu çür şərh edir.

*"Go chore brein du ar uur*
*caer-ceni bei ef Arthur –*
*rug c[um n]erthi ig [cl]isur,*
*ig kynnor guernor-Guaur(dur).*

*O, istehkam şəhərinin divarı qarşısında qarğaları vururdu – baxmayaraq ki, o Artur deyildi – zehində olan qəhrəmanlığın birəbir təsəvvürü, qızılağac ağacından [qalxanlardan] olan sədd – Quaurdur. ..."O Artur deyildi" ifadəsi o deməkdir ki, Artur düşmənlərinin daha mahir qatili idi. ... Şerin qəhrəmanının Artur səviyyədə igid olmamasının deyilişi ilkin Uels mədəniyyətlərində qeyri-adi müqayisə idi. ... Çünki, Artur qafiyələnir və ümumi son qafiyə olan "–ur" erkən Uels şeirinə xas deyildi və eyni zamanda, kişi adlarının son hecası kimi də nadirdir. Mətndə Arturun başqa bir qəhrəman adı ilə əvəz edilməsi ehtimalı çox azdır"* [4, s.51-52]. Beləliklə, Qododin şeirində qəhrəman döyüşçü kimi təqdim olunan Artur haqqında ilk mənbə, həm də digər əsərlərdə bu adın istifadə olunmasının başlanğıcı kimi də hesab oluna bilər. Daha sonra biz yazılı mənbələrdə savaş komandiri Arturun adına və onun başçılıq etdiyi müharibələrdəki qələbələrinə tarixi cəhətdən o qədər də doğruluğuna əmin olmunmayan Nenianın "History of the Britons" ("Britonların tarixi") əsərində rast gəlirik, eyni zamanda, Cefri Monmuntlunun "Historia Regum Britanniae" ("Britaniya krallarının tarixi") kitabında artıq Kral Artur haqqında geniş məlumat

verməsi ilə tanış oluruq və nəhayət fransız "Vulqata"sından təsirlənən və həpisdə olarkən bu kitabın maksimal dərəcədə qısaldılmış variantını "Le Morte d'Arthur" ("Arturun ölümü") adı altında yazdığı əsər ilə öz adını ölümsüzləşdirəm Tomas Melori ilə qarşılaşırıq.

Ümumiyyətlə Kral Artur haqqında ədəbiyyatda saymaqla tükənməyən bədii əsəsrlərə rast gəlmək mümkündür və bu siyahi illər keçdikcə artmağa davam edir. Yazıçıların qida mənbəyi olan Kral Artur dövrünə öz əsərlərində müraciət etmiş müəlliflər: Mariya Kreyk "King Arthur: Not a Love Story" ("Kral Artur: Sevgi hekayəsi deyil"), Mark Tven "A Connecticut Yankee in King Arthur's Court" ("Kral Arturun sarayında Konnektikut Yankisi"), Sara Tisdeyl "Guenevere" ("Qvinevra"), Terens Uayt "The Once and Future King" ("Keçmişin və gələcəyin kralı"), Con Steynbek "Acts of King Arthur and His Noble Knights" ("Kral Artur və onun alicənab cəngavərlərinin əməlləri"), Tomas Berger "Arthur Rex: A Legendary Novel" ("Artur Reks: Əfsanəvi roman"), Meri Styuart "Artur pentalogiyası" ("Arthur pentalogy"), Nensi Spinger "I am Mordred" ("Mən Mordredəm") və bir çoxlarını sadalamaq olar.

Ümumiyyətlə, tarixi arenada V əsrin sonu VI əsrin əvvəllərində baş verən hadisələr Britaniya adasında "qaranlıq dövr" kimi yadda qalıb. Britaniyaya german tayfaları tərəfindən olan sonsuz hücumlar və onlara qarşı mübarizə aparan əfsanəvi şəxsin məhz Kral Artur olub olmaması mübahisə məsələsi olaraq qalmaqdadır. Əlbəttə ki, bu qaranlıq dövrün aydınlığa qovuşması üçün tarixi tədqiqatlar hələ də aparılmaqdadır. Bildiyimiz kimi Britaniya adası e.ə. 55-ci ildən başlayaraq Roma İmperiyasının mühüm tərkib hissələrindən birinə çevrilməyə başlamışdır. Lakin hunların, germanların Romaya mütəmadi basqını Roma imperiyanın zəifləməsinə gətirib çıxarır və eyni zamanda, Romalıların daxili münaqişələri nəticəsində V əsrin ilk onilliyindən Roma İmperiyasının əsgərləri Britaniyanı tərk etməyə başlayır və Britaniyanın ən müəmmalı və sirli dövrü bu zamana rast gəlir.

Artıq V əsrin sonlarından altmış ilə yaxın Saksonların hücumlarının dəff olunduğu bir dövrdə əlbəttə ki, bu müvəffəqiyyət bir qəhrəmanın adı ilə əlaqələnməli idi. Zaman etibari ilə Arturun yaşadığı ehtimal edilən dövrdə fəaliyyət göstərən Britaniyalı tarixçı Qilda olmuşdur ki, o da Kral Arturun adını öz "Britaniyanın süqutu haqqında" ("De Excidio et conquestu Britanniae") kitabında çəkmir. Bu haqda ilkin məlumatı bizə XII əsrdə yaşamış olan Uels rahibi Karadok Lankarvanskiy təqdim edir. Onun gəldiyi qəaətə görə heç bir krala və hətta bütün Britaniyanın Kralı olan Artura da itaət etməyən Stretklaydın kralı Kay Piktin oğlu, Qildanın böyük qardaşı mahir döyüşçü Yueli Kral Artur öldürür və məhz bu səbəbə görə "Britaniyanın süqutu haqqında" ("De Excidio et conquestu Britanniae") kitabında Artur adına rast gəlinmir. Qidanın yazdığı bu kitabı bir növ süquta məhkum olan krallığın əsas əlamətlərinin şərhinə əsaslanan qənaətlər toplusu da adlandırmaq olar. "Britaniyanın süqutu haqqında" ("De Excidio et conquestu Britanniae") kitabında Britaniyanın aqibətinin qəsbkarlar tərəfindən nə səbəbə zəpt olunması göstərilir. Tarixi vəziyyətin bu cür olmasını Qilda idarəçilik prinsiplərində

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 456-464*
olan boşluqlarda, həmlələrin düzgün müəyyən olunmamasında görməklə yanaşı, bir din xadimi kimi də baş verən tarixi faciənin günahkarlarını kralların mənafelərini güdmələrindən və onların özbaşnalığından irəli gələn cəza olaraq da görür. Onu da qeyd edək ki, biz Uels əfsanələrinin toplandığı "The Mabinogon" ("Mabinoqion") kitabına daxil olan "Geraint son of Erbin" ("Erbinin oğlu Qeraynt"), "How Culhwch Won Olwen" ("Kiluxun Olvenə qovuşması"), "Rhonabwy's Dream" ("Ronabvinin arzusu") hekayələrində Arturu tanıyan və ona xidmət edən bilikli insan olan Qildanın adının çəkildiyinə və onun atasının da Stretklaydın kralı Kay Pikt olduğunu müşahidə edirik.

Kral Arturun adının canlandırılması və əbədiləşdirilməsinə tarix boyu çox rast gəlinmişdir. Belə ki, XII əsrdə yaşayıb yaradan Cefli Monmuntlu "Historia Regum Britanniae" ("Britaniya krallarının tarixi") əsərində ilk dəfə olaraq Kral Arturun ağır yaralı vəziyyətdə Avalona aparldığını təsvir edir. Daha sonra bu ideya bir çox yazıçıların əsərlərində öz əksini tapır. Avalonun isə coğrafi məkan olaraq Qlastonberi olduğu iddia olunur. Beləliklə, əsrlərcə dini mərkəz sayılan və bir çox zəvvarların daim maraq mərkəzində olan Qlastonbernin abbatlığına XII əsrdə ciddi ziyan verən yanğın baş verir və əlbəttə bu yanğının fəsadları aradan qaldırılsa da ora öz əvvəlki ehtişamına qayıda bilmir. Bu vəziyyəti aradan qaldırmaq naminə XII əsrin sonlarına yaxın rahiblər qəfildən Arturun və daha iki insanın tabutuna rast gəlirlər və qəbir sahiblərinin kimliyini bildirən xaçın üzərindəki latınca yazılan yazılar da tabutun sahiblərindən birinin Artur olduğunu təsdiqləyir. Beləliklə bu həmlə abbatlığın əvvəlki cah-calalının geri qaytarılması üçün idi.

Artur adı insanların zehnində əsrlər boyu etibarlılığın, inamın, simvolu kimi ötüb gəlməsi səbəbi ilə tarix boyu onun adından bir çox tarixi şəxslər, qeyd etdiyimiz kimi din xadimləri bəhrələnməyə çalışmışlar. Tarixçi, yazar 1934-cü ildə Femina (Femina Vie Heureuse Prize) mükafatı laureatı və 1981-ci ildə Britaniya İmperiyası ordeni (Order of the British Empire) ilə təltif olunan Elizabet Cenkinsin "The mystery of King Arthur" ("Kral Arturun sirri") adlı kitabında bu tarixi şəxsiyyətlər sırasında VII Henri Tüdorun və onun nəvəsi I Yelizavetanın eyni zamanda, ondan sonra taxta çıxan Ceyms Çarles Stüartın da adını görmək olar. Siyasi və hərbi həmlələrdən məharətlə istifadə edən VII Henri hakimiyyətdə möhkəmlənmək və qanuni monax olduğunu sübut etməkdən ötrü özünün Arturun nəslindən olduğunu iddia etməyə başlayırdı. Belə ki, *"I Edvard Arturun soyundan olduğunu əsas gətirərək Şotlandiya üzərində hökmranlığını iddia etmişdi; bundan başqa VII Henri iddia edirdi ki, onu Britaniyanın həqiqi Kralı elan edən amil məhz Artur nəslindən olmasıdır"* [5, s.155-156]. 1567-ci ildə Ceyms Stüartın anası kraliça Mariya Stüart siyasi intriqa zəminində taxtdan uzaqlaşdırılır və o, Şotlandiyanın kralı elan olunur beləliklə, 1603-cü ildə I Yelizavetanın ölümündən sonra onun qohumu olması səbəbi ilə o, İngiltərənin də kralı elan olunur. Elizabet Cenkinsin kitabında yazır: *"Ceymsi Artur olaraq təqdim etmənin başqa bir səbəbi isə hakimiyyətə gəldikdən sonra İngiltərə, Şotlandiya və Uelsi vahid Böyük Britaniya adı altında birləşdirə bilməsi idi. Venesiya səfiri 1603-cü ilin aprelində yazırdı ki, VII Henrinin bu fərqli-fərqli*

*krallıqlara "Böyük Britaniya" adını verməsi "əzəmətli Kral Arturun bütün krallığı vahid ad altında birləşdirmək" qərarına oxşayırdı"* [5, s.167-168].

Çoxsaylı Kral Artur haqqında yazılan kitabların birinin müəllifi olan ingilis tədqiqatçısı Hovard Rid "Arthur, the Dragon King: The Barbaric Roots of Britain's Greatest Legend" ("Artur əjdahaların kralı: Britaniyanın ən böyük əfsanəsinin barbar mənşəyi") kitabında Arturun yaşadığı dövrü müəyyən etməyə çalışır. Artur haqqında aparılan tədqiqatları nəzərə alan və müxtəlif paralelliklər aparan Hovard Rid Arturun V əsrin sonu və VI əsrin əvvəllərində axtarmağın məqsədə və məntiqə uyğun olmadığını düşünür. Haqqında yazdığımız Cefri Monmuntlu da Neniya kimi Arturun yaşadığı dövrü heç bir dəqiq faktla əsaslanmasalar da V-VI əsrlər kimi təqdim etmişdirlər. Beləliklə tədqiqatçı Hovard Rid öz fikrini bu cür bəyan edir: *"Saysız-hesabsız müəlliflər Arturu orada yalnız istədikləri üçün tapdılar, onların haqlı olduğunu göstərən sübutların olduğuna görə deyil"* [6, s.108].

Aparılan tədqiqatlar nəticəsində Britaniya ədəbiyyatının bünövrəsini təşkil edən əfsanəvi Kral Arturun milli mənsubiyyətinin birmənalı olaraq keltlərə mənsub olmaması da aşkar olunmuşdur. Skot Littilton və En Tomasın "The Sarmatian Connection: New Light on the Origin of the Arthurian and Holy Grail Legends" ("Sarmat əlaqəsi: Artur və Müqəddəs Qraal əfsanələrinin mənşəyinə dair yeni baxış") adlı məqaləsində əfsanəvi-tarixi qəhrəman Arturun Sarmatlarla olan əlaqəsini tədqiqata cəlb etmişdirlər. Məqalədə Kral Arturun ölümünün sarmatların e.ə VIII-VII əsrlərdə formalaşan əfsanəvi qərhəmanı Batrazın ölümü ilə müqayisə olunur. Tədqiqatda əfsanələrdə olan bənzərliklərin kökünün haradan gəlməsi araşdırılır və nəticədə eramızın 175-ci ilində Romalıların qarabasmasına çevrilən sarmatların Roma imperatoru Markus Avreliyus tərəfindən məğlub edilməsi ilə təzminat qarşılığında sarmatlardan 8000 süvari əsgərlərlə təmin olunması göstərilir. Onu da qeyd edək ki, bu çətin keçən qələbədən sonra Markus Avreliyus özünü "Sarmatikus" ("Sarmaticus") titulu ilə mükafatlandırır. Beləliklə, Romalılara tabe olan bu cəsur süvari 5500 əsgərlər Bitaniyanın Hardian divarlarını piktlərdən, skotlardan və kaledoniyalılardan qorumaq üçün göndərilir və onların legion komandiri isə sarmatların Azık (Yazıq) boyundan olan Lusios Arturios Kastus olur. Məqalədə qeyd edilir ki, *"O (Kral Artur haqqında əfsanə – V.N.) artıq sırf "Britaniya" mirası kimi görünə bilməz..."* [7, s.525]

Sarmatların mənşəyinin iranlı və ya türk olması mübahisəli məsələlərdən sayılır. Sarmatların İranlı topluluqlar olaraq bilinməsi Kral Arturun da İranlı olaraq qələmə verilməsi ilə nəticələnir lakin Sarmatların özlərinin köklərinə nəzər saldığımızda dosent Eren Karatay bildirir ki, *"Sarmatlar skiflərdən yaranmış bir tayfadır"* [8] daha sonra Skiflerin *"türklərin ən erkən zamanda Millət səviyyəsinə yüksəlməsini təmin edən ilk türk boylarıdır"* [8] deye bildirir. Sarmatların zamanla iranlaşan boyları olduğu kimi türklüyünü qoruyub saxlayan Azık (Yazıq) boyu da vardır ki, Lusios Arturious Kastus da qeyd etdiyimiz kimi bu boydandır.

Tüklərə aid olmayan qədim dastanların qəhrəmanlarının adlarında və sözlərində türklüyün mövcud olduğunu nümunələrlə izahını göstərən professor

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 456-464*
Osman Karatay "Türklerin kökeni" ("Türklərin mənşəyi") adlı kitabının "İngiltere'de neler oldu?" ("İngiltərədə nələr baş verdi?") bölməsində *"...qədim dövrlərin geniş yayılmış türk adı olan Arturu "Ər dir"..."* [9, s.199] deyə izah edir. Onu da qeyd etməliyik ki, "Artur" adı alimlər tərəfindən birmənalı şəkildə izah edilmir. Bütün bu nəzəriyyələr geniş tədqiqat nəticəsində ərsəyə gəlmişdir. *"E.V.B.Nikolson Artur adının iki kelt mənşəli sözün birləşməsindən yarandığını hesab edir: artos ("ayı") və viros ("insan"). Bu da Arturun adının güclü döyüşçü mənasını verən metaforudur: "Ayı adam." A.Holder isə bu adın irland mənşəli art ("daş") sözü ilə əlaqəli olduğu təklifini qeyd etsə də, M.Müller isə Aryan mənşəli "ar" ifadəsinin "şumlamaq" mənasını verdiyini qeyd etməklə, Arturu qismən məhsuldarlıq tanrısı ilə əlaqələndirməyə çalışmışdır..."* [10, s.37]. Bu nəzəriyyələri qəbul edən yazıçılar da vardır ki, onlar öz romanlarında bu fərziyyələri qəbul etmiş və işləmişdirlər.

Osman Karatay Arturun məşhur "Ekskalibur" qılıncının da türk mənşəli söz olmasını vurğulayır. *"Bunu indiki bələdçi (kılavuz) sözümüzün kolavur/kalavur köhnə türkcə forması ilə əlaqələndirmək məqsədəuyğun ola bilər"* [9, s.197]. Qılıncdan danışarkən onun sarmatlar üçün olan əhəmiyyətindən və müqəddəsliyindən mütləq şəkildə qeyd etməliyik. Onu da nəzərə çatdıraq ki, Hovar Rid "Arthur, the Dragon King: The Barbaric Roots of Britain's Greatest Legend" ("Artur əjdahaların kralı: Britaniyanın ən böyük əfsanəsinin barbar mənşəyi") kitabında olan maraqlı məqamlardan biri də Artur adını simvollaşdıran anlayışlardan biri olan "daşda qılınc" motivinin də sarmatlardan gəlmiş olmasını qeyd etməsidir.

Əlbəttə, Kral Artur haqqında yazarkən əjdaha kultundan yan keçmək qeyri-mümkündür. Əjdahanın sarmatlar üçün olan əhəmiyyəti mütəmadi olaraq Britaniyalılara da siraət etmişdir. Nəticədə bu totemin Romalılar üçün də əhəmiyyətli dərəcədə yer tutması və hərbi birliklərdə istifadə etməsi də tarixi reallıq olaraq bilinməkdədir. *"...Sarmatların mistik fikirlərində əjdaha mərkəzi yer tutur, bunun bariz nümunəsi gənc Sarmat şahzadəsinin dəfn edilməsindən olan əşyalardadır..."* [6, s.217] Ümumiyyətlə, Artur əfsanələrində əjdaha çox əhəmiyyətli mövqeyə sahibdir. Neniyanın "History of the Britons" ("Britonların tarixi") əsərində, Cefri Monmuntlunun Neniyadan da bəhrələnərək yazdığı "Historia Regum Britanniae" ("Britaniya krallarını tarixi") əsərində əjdaha mistik varlıq olaraq təsvir edilir. Cefri Monmuntlu kitabında Arturun gördüyü yuxuda əjdaha ilə ayının savaşını təsvir edir. Bu yuxuda qalib olan əjdaha olur ki, o da Arturu təmsil edir. Tarixi həqiqət olaraq da bilinir ki, *"XV əsrdə qırmızı əjdaha uzun müddət Uelsin heraldik emblemi kimi tanınırdı. VII Henry Tüdor onu rəsmi şəkildə gerb olaraq təsdiqlədi"* [11].

Qardaşlığın, dostluğun, cəsarətin simvoluna çevrilən müəmmalı tarixi əfsanəvi qəhrəman olan Kral Artur əsrlər boyu hərkəsin maraq dairəsində olub. Əsərlər yazıldıqca onun əməllərinə yeni əlamətlər əlavə olunmağa başlandı, və dövrün xüsusiyyətlərinə görə də onun xarakteri də formalaşdı. Nə sehrdisə, əsrlər boyu öz aktuallığını qorumaqla yanaşı Kral Artur daim hərkəsin sevimli surəti olaraq oxucuların diqqətini çəkdi. Məqalədə qeyd etdiyimiz kimi Kral Arturun milli mənsubiyyəti mübahisəli məsələyə çevrilməyə başladı və onun Kelt, Sarmat, Türk,

İranlı, Fransız və s. olub-olmaması tarixçilərin və arxeoloqların müəyyənləşdirəcəyi məsələyə çevrildi. Biz isə fikrimizi professor Osman Karatayın fikri ilə yekunlaşdırırıq. Osman Karatay əminliklə deyir ki, *"Artur türkdür..."* [12] Professor bildirir ki, zamanla əfsanəyə çevrilən real tarixi qəhrəman olan Lusios Arturious Kastusun rəhbərlik etdiyi hərbi birlik *"Oraya (Britaniya adasına – V.N.) getmiş olan, orada ərimiş olan 5500 nəfərlik türk birliyinin... izlər qoymuş, dastan qoymuş..."* [12] bir birliyin nümayəndəsidir. Beləliklə, əfsanəvi Kral Arturun tarixi prototipinin Lusios Arturios Kastus olduğu da qeyd olunur. Nəticədə Kral Artur türk mənşəli lider olması meydana çıxır.

## Ədəbiyyat

1. Əliyev, R. Ədəbiyyat nəzəriyyəsi / R.Əliyev. – Bakı: Mütərcim, – 2008. – 360s.
2. Ashe, G. The Discovery of King Arthur. / G.Ashe. In Association with Debrett's Peerage. – New York: Anchor Press, – 1985. – 226 p.
3. Thompson, R.H. Interview with Mary Stewart (The Camelot Project) [Electronic resource] / – 1999. URL: https://d.lib.rochester.edu/camelot/text/interview-with-mary-stewart
4. The Celts: history, life, and culture: [in 2 vol.]) / ed. J.T.Koch, A.Minard. – Santa Barbara, California: ABC-CLIO, – vol. 1. – 2012. – 442 p.
5. Jenkins, E. The mystery of King Arthur / E.Jenkins. – New York: Coward, McCann & Geoghegan, – 1975. – 224 p.
6. Рид, Г. Артур – король драконов. Варварские истоки величайшей легенды Британии / Г.Рид. – М.: Менеджер, – 2006. — 360 с.
7. Littleton, C.S and Thomas A.C. The Sarmatian Connection: New Light on the Origin of the Arthurian and Holy Grail Legends // The Journal of American Folklore, – January - March 1978. vol.91, №359, – p.513-527.
8. Sarmatlar ve Kral Arthur Efsanesi [Elektronik kaynak] / URL: https://www.youtube.com/watch?v=5XTRjuWR2ww&list=PLoGoBrITBaj4Q--CSPYKYqZmMUUVkD8nY&index=14
9. Osman, K. Türklerin kökeni / K.Osman – Ankara: Kripto, – 2019. – 336 s.
10. Bruce, C.W. The Arthurian Name Dictionary / C.W.Bruce. – Bosa Roca: Taylor&Francis, – 1999. – 544 p.
11. Онлайн чтение книги Мабиногион. Ллудд и Ллевелис [Электронный ресурс] / URL: https://librebook.me/mabinogion/vol3/2
12. Osman Karatay-Kral Arthur Efsanesi ve Türkler 2 [Elektronik kaynak] / URL: https://www.youtube.com/watch?v=0Fvr6G5UioY&list=PLoGoBrITBaj4Q--CSPYKYqZmMUUVkD8nY&index=13

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 456-464*

**Вюсаля Набиева**

## СПОРНЫЕ ВОПРОСЫ ОБ НАЦИОНАЛЬНОСТИ ИСТОРИЧЕСКОГО-ЛЕГЕНДАРНОГО ОБРАЗА АНГЛИЙСКОЙ ЛИТЕРАТУРЫ КОРОЛЯ АРТУРА

### Резюме

Исторически произведения, посвященные эпохе короля Артура, систематизируются под названием «Артурианская литература». В целом легенды об «Артуре» включают в себя короля Артура древней Британии, его рыцарей Круглого стола, Кодексы рыцарства, Дворец Камилота, Экскалибур и т. д. Вообще в литературе можно найти бесчисленное множество художественных произведений о короле Артуре, и этот список с годами продолжает пополняться.

В целом на исторической арене события, произошедшие в конце V - начале VI веков, вспоминаются как «темные века» на Британских островах. Бесконечные набеги германских племен на Британию и вопрос о том, был ли легендарный персонаж, сражавшийся против них, королем Артуром, остается предметом споров. Конечно, исторические исследования все еще проводятся, чтобы прояснить этот темный период.

В результате проведенных исследований также выяснилось, что Артур национальность легендарного короля который являющегося основой британской литературы, явно не принадлежит толко кельтам. Король Артур, загадочный исторический легендарный герой, ставший символом братства, дружбы и мужества, на протяжении веков интересовал всех. По мере написания произведений к его поступкам стали прибавляться новые черты, а также формировался его характер с учетом особенностей времени. Здесь есть какое-то необъяснимое магия, что король Артур всегда привлекал внимание читателей как всеобщий любимый образ, сохраняя при этом свою актуальность на протяжении веков. Как мы упоминали в статье, национальность короля Артура стала становиться спорным вопросом. Его классифицирует к кельтцем, сарматом, турком, иранцем, и т. д. В этом статье мы постарались выяснит ети спорные вопросы, но докопаться до истины снова и снова остаётся за делом историков и археологов.

**Vusala Nabiyeva**

## CONTROVERSIAL ISSUES ABOUT THE NATIONALITY OF THE HISTORICAL LEGENDARY FIGURE OF ENGLISH LITERATURE KING ARTHUR

### Summary

Historically, works dedicated to the era of King Arthur are systematized under the name "Arthurian literature." In general, the legends of "Arthur" include King Arthur of ancient Britain, his Knights of the Round Table, Codes of Chivalry,

Palace of Camelot, Excalibur, etc. Over the years, numerous works of fiction based on King Arthur's legends have been written, and the list continues to expand.

In the historical arena, the late 5th and early 6th centuries are generally referred to as the "Dark Ages" in the British Isles. During this period, the Germanic tribes constantly raided Britain, and it is still a matter of debate whether King Arthur, the legendary figure who fought against them, actually existed. Historical research is ongoing to shed light on this obscure period of history.

Through research, it has become evident that King Arthur, the legendary hero who is the foundation of British literature, does not exclusively belong only to the Celts. King Arthur has been a symbol of courage, friendship, and brotherhood for centuries, and as his works were written, new characteristics were added to his actions and character to reflect the time's peculiarities. There is something inexplicably enchanting about King Arthur, which has captivated readers' attention, making him everyone's favorite character while maintaining his importance throughout the centuries. As we mentioned in the article, King Arthur's nationality began to become a controversial issue. He is classified as Celtic, Sarmatian, Turk, Iranian, etc. In this article, we tried to clarify these controversial issues, but getting to the bottom of the truth again and again remains the task of historians and archaeologists.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi:Filologiya üzrə fəlsəfə doktoru, dosent Leyli Əliheydər qızı Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur**